Səh. 2 AZƏR MUSAOĞLU YAZIR...
Səh. 5 İBRAHİMXƏLİL YAZIR...
Səh. 2 YENİ MÜFTİ SEÇİLİB
Səh. 5 DÜNYAYA ONLAYN SƏYAHƏT
Səh. 3 HACI BƏKİROĞLU YAZIR...
Səh. 6 İOSİF QRİŞAŞVİLİNİN "QƏDİM TİFLİSİN ƏDƏBİ BOHEMASI" ƏSƏRİNDƏN BİR PARÇA
Səh. 4 DİSTANT TƏHSİL – TƏHSİLİN UZAQLIĞI
Səh. 7 AFİQ MUXTAROĞLU YAZIR...

İCTİMAİ QƏZET yeni_yol@mail.ru "იენი იოლი" საზოგადოებრივი გაზეთი HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

31 DEKABR
2020-Cİ İL
№019 (123)

# Yeni YOL

*Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.*

## YENİ HÖKUMƏT TƏSDİQLƏNİB



Gürcüstan parlamenti yeni hökumətin tərkibinə etimad göstərib. 85 deputat yeni hökumətin lehinə səs verib.

Giorgi Qaxarianın başçılıq edəcəyi nazirlər kabinetində bir yeni nazir yer alıb. O, ədliyyə naziri Qoça Lortkipanidzedir. Nazir bu ilin dekabrın 19-da Beynəlxalq Ədalət Məhkəməsinə hakim seçildiyindən bir neçə aydan sonra vəzifəsini tərk edəcək.

Yeni hökumət bu tərkibdə təsdiqlənib:

- Təhsil, elm, mədəniyyət və idman naziri – Mixeil Çxenkeli;
- Ətraf mühitin mühafizəsi və kənd təsərrüfatı naziri – Levan Davitaşvili;
- İqtisadiyyat və dayanıqlı inkişaf naziri – Natia Turnava;
- Müdafiə naziri – İrakli Qaribaşvili;
- Məcburi köçkünlərin işləri, əmək, səhiyyə və sosial müdafiə naziri – Ekaterina Tikaradze;
- Ədliyyə naziri – Qoça Lortkipanidze;
- Regional inkişaf və infrastruktur naziri – Maia Tskitişvili;
- Xarici işlər naziri – David Zalkaliani;
- Maliyyə naziri – İvane Maçavariani;
- Daxili işlər naziri – Vaxtanq Qomelauri;
- Barışıq və vətəndaş bərabərliyi məsələləri üzrə dövlət naziri – Tea Axvlediani.

## ELEKTRİK ENERJİSİ BAHALAŞIB

Gürcüstanın Energetika və Su Təminatı üzrə Milli Tənzimləmə Komissiyasının qəbul etdiyi qərara əsasən, gələn il yanvarın 1-dən Gürcüstanda elektrik enerjisinin yeni istehlak tarifləri qüvvəyə minəcək.

Qərara görə, Tbilisi və bölgələrdə əhali üçün qiymət 3,5 tetri, kommersiya müəssisələri üçün isə 11 tetriyə yaxın artıb. Yeni tariflər 2025-ci ilin sonuna qədər qüvvədə olacaq.

Gürcüstan hökumətinin qərarı ilə ayda 300 kilovatt/saatadək elektrik enerjisi istehlak edən sakinlər üçün cari tarif və artırılmış tarif arasında fərq tam subsidiya ediləcək.



Qeyd edək ki, hazırda Tbilisidə ayda 101 kilovat/saatadək elektrik enerjisi istehlak edənlər üçün tarif 14,5 tetri, 301 kilovat/saatadək elektrik enerjisi istehlak edənlər üçün isə 18,5 tetri təşkil edir. Bölgələrdə isə bu tariflər müvafiq olaraq 14,2 tetri və 18,2 tetriyə bərabərdir.

## MƏHDUDİYYƏTLƏRİN TƏTBİQİ MÜDDƏTİ 6 AY UZADILDI

Hökumətin pandemiya dövründə ölkədə fövqəladə vəziyyət elan etmədən məhdudiyyətlər tətbiq etmək səlahiyyəti 6 ay müddətinə uzadılıb.

Gürcüstan parlamenti "İctimai sağlamlıq" haqqında qanuna düzəlişləri yekdilliklə dəstəkləyib.

Düzəlişlərə əsasən, hökumət 2021-ci ilin iyulun 1-dək məhdudlaşdırıcı tədbirləri həyata keçirmək səlahiyyətinə malik olacaq.

Qeyd edək ki, cari ilin iyulunda hökumətə bu səlahiyyət 2021-ci ilin yanvarın 1-dək verilmişdi.




## GÜRCÜSTANDA KORONAVİRUSDAN ÖLƏNLƏRİN SAYI 2500-Ü KEÇİB

Dekabrın 31-nə olan son məlumata əsasən, Gürcüstanda koronavirusdan ölənlərin sayı 2505 nəfərə çatıb. Bu haqda www.stopcov.ge saytında qeyd edilib.

Məlumata görə, ölkədə koronavirusa yoluxanların sayı 227420 nəfər, sağalanların sayı isə 211727 nəfər təşkil edib.

Ölkə üzrə karantin rejimində 431 nəfər, stasionar nəzarətdə 5104 nəfər olub. COVID mehmanxanalarda olan şəxslərin sayı 1167 nəfər olaraq göstərilir.





# QALAN İNSANLIQ OLACAQ

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

Epidemiya gəldi-gedərdi, qalan insanlıq olacaq. İnsanlıqsa, təəssüf ki, supermarketlərdə satılmır, satılsaydı bəlkə arabir pullular da əllərini ciblərinə salıb alardılar. Bəlkə də yanılıram, Hacı Qaralardan əllərini ciblərinə salmalarını gözləmək keçinin ağaca dırmaşmasını gözləmək kimi olardı. Elə pul da, pullular da, insanlar da gəldi-gedərdi, bunu da tarix boyu epidemiyalar özü göstərib. Həmişə qalan insan yox, insanlıq olub, əlbəttə, əsl insanların sayəsində. Hardan oxuduğum yadımda olmasa da, vergülünə kimi yaddaşıma həkk olan bu cümləni bu abzasa əlavə etmək mənlik, yozmaq isə sizlik olsun: *Əgər bir yerdə kiçik insanların böyük kölgələri olursa, orada günəş batır deməkdir.* Günəşimiz heç vaxt batmasın!

Burada yuxarıdakı abzasla heç bir əlaqəsi olamay pritça paylaşmaq yenə mənlik, oxuyub nəticə çıxarmaq isə yenə də sizlikdir.

Deməli, *Molla Nəsrəddin eşşəyini də götürüb oğlu ilə səyahətə çıxır. Molla özü eşşəyin noxtasını tutub irəlidə gedir, oğlu isə eşşəyin belində oturur. Bunu görən camaat – Mollaya bax, övladına verdiyi tərbiyəyə bax, yaşlı ata piyada gedir, cavan oğul eşşəyin üstündə – deyib, onları tənbeh edir.*

*Molla Nəsrəddin oğlunu eşşəkdən düşürür, özü eşşəyə minir və yollarına davam edirlər. Növbəti kəndə çatmışdılar ki, molla əhalinin bir yerə yığışıb, onlar haqda deyindiyini eşidir:*

*– Mollaya bax, özü eşşəkdə, oğlu isə piyada gedir. Uşağa yazığı gəlmir. Sən canlı-cəsədli adamsan, heç olmasa oğlunu da yanında oturt.*

*Molla bu adamların sözünü dinləyib, oğlunu da eşşəyə mindirir və yoluna davam edir. Bir az getdikdən sonra başqa bir kəndin içindən keçməli olurlar. Buranın da əhalisi onları görüb məzəmmətə başlayır:*

*– Mollaya bax, adamda insaf deyilən şey yoxdur. İki nəfər miniblər heyvanın üstünə, heyvana yazıqları gəlmir.*

*Molla əlacsız bunlara da qulaq asıb, dediklərinə əməl edir. Bir əlində oğlunun əlini, digərində isə eşşəyin noxtasını tutur, oğlu və özü qabaqda, eşşək isə arxada yollarına davam edirlər. Yaxınlıqda bir kənd görünür, molla "Görəsən bu kəndin camaatı nə söz tapacaq?" – deyərək kəndə yollanır. Bu kəndin əhalisi də sözü bir edib, başlayırlar onları tənqid etməyə:*

*– Bunlar deyəsən dəlidilər, yorğun ola-ola piyada gedirlər, eşşəyi də boş-boşuna arxalarınca dartırlar.*

*Molla əsəbiləşərək, oğluna "Görürsənmi, oğul, hərə bir söz danışır. Elin ağzı torba deyil ki, bükəsən", – deyir.*

Bəli, hərə bir söz danışır və danışılan hər sözü dinləyib əməl etsək bu eşşəkbelisındırdı oyununda belimiz sınar. Əvvəl qohum-əqrabanın, qonum-qonşunun ağzını "bükmək" olmurdusa, indi bu, qlobal formada baş verir. İndi internet trolları adamın qanını qaraldır. Əvvəl insanın həyatına (həyətinə) darvazadan, qapıdan, pəncərədən burun soxurdularsa, indi bunu telefonun, kompüterin ekranından, "windows"dan (ingiliscə - pəncərə deməkdir) edirlər. İşləri-gücləri onu-bunu güdmək, şaiyə yaymaq, ləkələmək, ara vurmaq, pislik etmək olan bu könüllü senzorlara nə epidemiya təsir edir, nə viruslu ölüm. Dünya da məhz bələlərinin fanilik duyğusunu itirməsi ilə maddiləşib. Yalnız görünənə inanan bu "homo sapienslər" üçün müqəddəs, dəyərli heç nə yoxdur. Bunlar vəzifədə merkantil, ziyalılıqda ziyanlı, mövqedə nalmıx, əməkdaşlıqda müxənnət, başqalarının uğuruna paxıl, dostluqda çörəyi dizinin üstə olanlardır. Və təəssüf ki, illərdir camaatın gözünə kül üfürməklə özünü cəmiyyətə "persona grata" kimi reklam edənlər hələ də ütülü kostyum-şalvarlarda, qızılı sancaqlı qalstuklarda hündür tribunalardan camaata yuxarıdan aşağı baxmaqdadılar. Amma və lakin indiki zamanda. Çünki keçmiş zamanda yoxdular, gələcək zamanda da olmayacaqlar. Tarixin ələyinin gözündən daş-kəsək addaya bilmir.

Və, əlbəttə ki, epidemiya da gəldi-gedərdi, bütün bunlar da. Qalan isə insanlıq olacaq. Yeni il və Dünya Azərbaycanlılarının Həmrəylik günü münasibətilə insanlıqda həmrəy olmağı arzulayıram!

## YENİ NAZİRLİK YARADILACAQ

Gürcüstanın Mədəniyyət və İdman Nazirliyi Təhsil və Elm Nazirliyindən ayrılacaq. Bunu Gürcüstanın baş naziri Giorgi Qaxaria parlamentdə çıxışı zamanı bildirib.

Onun sözlərinə görə, bu, prosedual qaydada fevral ayına qədər baş verəcək.

"Mədəniyyət və İdman Nazirliyinin ayrılması məsələsini bir neçə dəfə müzakirə etmişik və bununla bağlı qərar qəbul olunub. Bunun üçün qanunvericilik prosedurları tələb olunur və hesab edirəm ki, proses fevrala qədər başa çatdırılacaq", - deyə G.Qaxaria bildirib.



## ƏCNƏBİLƏRİN GÜRCÜSTANDA YAŞAYIŞ İCAZƏSİ ALMAQ İMKANLARI MƏHDUDLAŞDIRILACAQ



"Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi statusu haqqında" qanuna nəzərdə tutulan dəyişikliklərə əsasən, xarici ölkə vətəndaşlarının Gürcüstanda yaşayış icazəsi almaq imkanları məhdudlaşdırılacaq.

Hökumətin təşəbbüsü ilə hazırlanan və parlamentə təqdim edilən sənədə əsasən, icazə almaq imkanı yalnız əcnəbi və ya vətəndaşlığı olmayan şəxsin həyat yoldaşı, yetkinlik yaşına çatmayan uşağı və onun valideyninə veriləcək.

Düzəlişlərdə qeyd olunub ki, Gürcüstana vizasız daxil olmaq və qalma hüququna malik ölkələrin vətəndaşı olan şəxslər də yaşayış izni ala biləcəklər.

Layihəyə əsasən, xarici ölkə vətəndaşının Gürcüstanda cinayət törədəcəyi halda onun ölkədə yaşayış hüququ məhdudlaşdırılacaq.

## YENİ MÜFTİ SEÇİLİB

Dekabrın 21-i Bütün Gürcüstan Müsəlmanları İdarəsinin (BGMİ) mərkəzi ofisində Şərqi Gürcüstan müftiliyinə növbədənkənar seçki keçirilib. Ali Dini Şuranın tam tərkibinin qərarı ilə Etibar Eminov Şərqi Gürcüstan müftisi seçilib. O, vəzifəsini növbəti 5 il müddətində yerinə yetirəcək.

E.Eminov bundan öncə müftinin Kvemo Kartli bölgəsi üzrə nümayəndəsi olub.

Qeyd edək ki, keçmiş müfti Yasin Əliyev bu ilin sentyabrında səhhəti ilə bağlı vəzifəsini tərk edib.



"Yeni Yol" qəzeti Etibar Eminovu yeni vəzifəsi münasibətilə təbrik edir, ona fəaliyyətində uğurlar diləyir.

## BEYNƏLXALQ UÇUŞLARA MƏHDUDİYYƏTLƏRİN MÜDDƏTİ YENƏ UZADILDI



Gürcüstanın Mülki Aviasiya Agentliyinin məlumatına əsasən, beynəlxalq müntəzəm aviareyslərə tətbiq olunan məhdudiyyətlər 2021-ci ilin yanvarın 31-dək qüvvədə olacaq.

Məlumata görə, qərar Tbilisidən Münhen, Paris, Riqa, Doha, Varşava, Afina, Amsterdam, Vyana, Berlin və Milan şəhərlərinə yerinə yetirilən birbaşa və Kutaisi hava limanından həyata keçirilən uçuşlara aid edilmir.

Qeyd edək ki, bundan öncə məhdudiyyətlərin müddəti 2021-ci ilin yanvarın 1-dək uzadılmışdı. 2021-ci ilin fevral ayından etibarən ölkədə beynəlxalq uçuşlara tətbiq olunan məhdudiyyətlərin aradan götürüləcəyi gözlənilir.

# AŞIQ KAMANDARIN EV MUZEYİNİN TƏMİRİ BAŞA ÇATIR



Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev türkiyəli həmkarı Fatma Ceren Yazqanla birgə Marneuli rayonunun Kəpənəkçi kəndində Aşıq Kamandar Əfəndiyevin ev muzeyində təmir işlərinin gedişi ilə yaxından tanış olub.

Diplomatlar türk xalqlarına məxsus olan ozan-aşıq sənətinin tarixi, bu sənətin bölgədəki digər xalqlara təsiri barədə fikir mübadiləsi aparıblar.

Onlar muzeylə bağlı öz məsləhət və tövsiyələrini verib, gələcəkdə də bölgədəki bu cür mədəniyyət ocaqlarının fəaliyyətinə əllərindən gələn hər cür dəstəyi verəcəklərini vurğulayıblar.



Bildirilib ki, Aşıq Kamandarın ev muzeyinin təmir işləri son tamamlama mərhələsindədir və 2021-ci ilin ilk aylarında mədəniyyət ocağının ziyaratçılərin ixtiyarına verilməsi gözlənilir.

Qeyd edək ki, Aşıq Kamandar Əfəndiyev Azərbaycan ozan-aşıq sənətinin korifey sənətkarlarından biridir. Böyük ustad bu əbədiyaşar sənətin zənginləşməsi və inkişafında misilsiz xidmətlər göstərib. Borçalı aşıq məktəbinin yetirməsi olan Aşıq Kamandar "Azərbaycanın əməkdar mədəniyyət işçisi" (1984) fəxri adına və Gürcüstanın yüksək mükafatı olan "Şərəf" ordeninə (1999) layiq görülüb.

2012-ci ildə sənətkarın 80 illik yubileyi həm Tbilisi, həm də Bakı şəhərində dövlət səviyyəsində qeyd edilib. Elə həmin ildə Aşıq Kamandarın ev



muzeyi yaradılıb və 2013-cü ildə orada büstü qoyulub. Gürcüstanda rəsmi qeydiyyatda olan Aşıq Kamandarın ev muzeyinin bu yaxınlarda Türkiyənin Əməkdaşlıq və Koordinasiya Agentliyinin (TİKA) Gürcüstan nümayəndəliyi tərəfindən dünya muzeyləri standartlarına uyğun olaraq təmirinə başlanılıb. Təmir işlərini TİKA-nın Gürcüstan koordinatoru Necla Demirdağın rəhbərliyi ilə Gürcüstanda muzeylərin bərpası və qurulması üzrə təcrübəli mütəxəssisləri aparır. Aşığın ev muzeyinin təmir işlərinin məsləhətçisi folklorşünas, professor Mahmud Kamaloğludur.

*Mənbə: report.az*

# BEYNƏLXALQ VALYUTA FONDU GÜRCÜSTANA ƏLAVƏ OLARAQ 113,7 MİLYON ABŞ DOLLARI AYIRACAQ




Beynəlxalq Valyuta Fondu (IMF) Gürcüstana əlavə olaraq 113,7 milyon ABŞ dolları məbləğində maliyyə yardımının ayrılmasını təsdiqləyib. Bu barədə ölkənin iqtisadiyyat və dayanıqlı inkişaf naziri Natia Turnava bildirib.

O, IMF-nin Gürcüstanın ənənəvi və etibarlı tərəfdaşı olduğunu deyib.

N.Turnava qeyd edib ki, gələn il Gürcüstan iqtisadiyyatının bərpası ili olacaq və ən azı 4,3 % iqtisadi artım gözlənilir.

# YENİ İLDƏ BİÇMƏK ÜÇÜN KÖHNƏ İLDƏ NƏ ƏKMİSƏN?



Hacı BƏKİROĞLU
hacibakir@mail.ru

Saatları, günləri, ayları keçirərək nəhayət bu ilin də sonuna gəlib çıxdıq. Yola salmağa tələsdiyimiz kimi, qarşılamağa da tələsmişdik 2020-ci ili – atəşfəşanlıqla, çal-çağırla qarşılamışdıq. Ancaq gözlənilən kimi olmadı. Bunun üçün də indi tezbazar yola salmağa tələsirik.

Koronavirus pandemiyası səbəbi ilə insanlıq tarixinin bəlkə də ən böyük böhranlarından biri kimi də xatırlanacaq olan bu il bütün dünya üçün çətinliklərlə dolu bir il oldu. Çünki pandemiya səbəbi ilə mağazalar, restoranlar, ticarət mərkəzləri və bir çox iş yerləri fəaliyyətini dayandırmalı oldu. Bu isə xalqın iqtisadi vəziyyətini çətinləşdirdi. Bəli, anlayırıq ki, qoyulan qaydalar virusun yayılmasının qarşısının alınması üçündür. Ancaq bu vəziyyət hər yerə və hər kəsə şamil olunmalıdır.

Bu il həm də ölkəmizdə parlament seçkiləri ilə yadda qaldı – qalmaqallı seçkilərlə. Yuxarıda da qeyd etdiyimiz qadağalar məhz seçki kampaniyalarına aid edilmədi. Heç kim də anlaya bilmədi ki, bu virus seçənləri və seçilənləri tanıyırmı ki, orada onlara bulaşmadı? Hələ də sirr olaraq qalmaqdadır.

Bu ildə təhsilin səviyyəsi də sıfıra endi desək bəlkə də yanılmarıq. Onsuz da çox səviyyəli olmayan təhsil sistemimiz onlayn üsulla daha da aşağı və acınacaqlı vəziyyətə düşdü.

Əhali iqtisadi cəhətdən çox çətinliklərlə üzləşdi. Düzdür, dövlət bəzi yardımlar etdi, ancaq bu yardımlar gah lazımlı ünvalara yönləndirilmədi, gah da heç verilmədi. Edilən bəzi yardımlara da elə şərtlər irəli sürüldü ki, verilməsə daha yaxşıdır dedirdəcək hal aldı.

Bəli, ilin yarısını evdə oturaraq, digər yarısını da artıq bir parçamıza çevrilən maskamızı da yanımızda daşıyaraq ili başa vurduq. Gələn ilimizin necə olacağını bilməsək də bu ili yola verdiyimizə sevindiyimiz üçün atəşfəşanlıqla ili uğurlayırıq. Bəlkə də gələn il uğurlu gələcək və virusa qarşı vaksin tapılacaq. Bəlkə də heç tapılmayacaq və ömrümüzü evdə oturaraq və ya bir parçamız olan maskamızla sona yetirəcəyik.

Yuxarıda da qeyd etdiyim kimi, əhali iqtisadi yöndən çətinliklər çəkdi. Ancaq yenə də bəzi vətəndaşlarımız koronavirusa inanmadıqları kimi gələcək günlərin hansı çətinlikləri gətirəcəyini düşünmədən son qəpiklərini fişəngə, qoz-fındığa verərək bayram qeyd etməyə hazırlaşırlar. Bunlara bir deyən yoxdur ki, ay rəhmətliyin nəvəsi, beş qəpik saxla, bəlkə aclıq olur. Vallah, hər mağazaya girdiyimdə mat-məəttəl qalıram. Dini bayramlarını qeyd edən xristianlar qalıblar bir tərəfdə, bizim müsəlmanlar az qalırlar bayram keçirtmək üçün mağazalardakı, bazarlardakı məhsulları son dənəsinə qədər daşıyıb evlərinə doldursunlar. Deyə də bilmirsən ki, ay anam, ay bacım, onlar dini bayramını qeyd edir, bəs sən? Deyəndə də, deyirlər Yeni ili qeyd edirik. Bəs köhnə ili niyə düşünmürsən? Ömründən bir il də ötdü. Nə yaşadın, bu yola saldığın ildə nə əkdin ki, yeni ildə nə biçəcəksən? Bunu heç düşündünmü bu bayramı düşündüyün qədər?

# DİSTANT TƏHSİL – TƏHSİLİN UZAQLIĞI



Dünyanın hər yerində ictimai inkişaf cəmiyyət üçün lazımı faktordur. Gənc nəslin maarifləndirilməsi və gələcək üçün hazırlanması dövlətin öhdəliyidir. Filosof Con Dyuinin toxunmaq istədiyim bir sözu var: "Təhsil həyata hazırlıq deyil, təhsil həyatın özüdür". 21-ci əsrdə təhsilin əhəmiyyəti fərqlidir. Müasir təhsil sistemi mükəmməldir, texnologiyanın irəli gəlməsiylə artıq əlçatmaz informasiya, bilgi, elm yoxdur.

COVID-19 pandemiyası demək olar ki, həyatımızın hər hissəsində özünü göstərir, xüsusən də təhsil üçün böyük təhdid sayıla bilər. Təhsil ocaqlarının bağlanması, uşaqların və tələbələrin elmdən uzaqlaşdırılması beynəlxalq təhsil sistemində ciddi şəkildə geriləməyə gətirib çıxaracaq. Təhsil qurumları kifayət qədər resurs səfərbər etmir. Kiçikyaşlı şagirdlərin onlayn dərslərinə şahid oluram, qarşılaşdığım mənzərə dəhşət vericidir. Şagirdlər distant şəkildə dərs öyrənməyə hələ hazır deyillər, çünki onlar bu sistem üçün formalaşmayıblar. Dəqiq elmlərin onlayn sistemlə keçirilməsi keyfiyyətsiz biliklə nəticələnir. Şagirdlər eyni qavrayış və biliyə sahib deyillər. Məktəbdə müəllimlər şagirdlərə fərqli diqqət yetirərək onları dərsə cəlb edir, ancaq distant şəkildə bu mümkün deyil, şagird daha da tənbəlləşərək geriləyir.

Distant təhsilin bir çox mənfi cəhətləri var, bunlardan biri, bəzi şagirdlərin müxtəlif texniki problemlərə əsaslanaraq dərsə qoşula bilməmələridir. Bir çox ailədə kompüter və ya telefonun olmaması şagirdlər, eləcə də müəllimlər üçün böyük çətinliklər yaradır. Ali təhsil ocaqlarında distant təhsillə gələcəyin mütəxəssislərinin yetişəcəyi inandırıcı deyil. Tələbənin uğurlu bir karyera qurması üçün mütləq auditoriyada dərs keçməsi vacibdir. "Zoom", "Google meet", "Teams" proqramları vasitəsiylə dərs keçirilməsi zamanı tələbə sadəcə dərsə "qoşulur". Distant şəkildə dərslərin keçirilmsinə qarşıyam, çünki gələcək üçün biliksiz, yalnız diplomu olan fərdlərin yetişməsi cəmiyyətimiz üçün həqiqətən də qorxunc və təhlükəlidir. Keyfiyyətli dərslərin keçirilməsi üçün addımın atılmasını bir çox gənc kimi mən də istəyirəm. Unutmayaq ki, "Bütün elmlərin bünövrəsi təhsillə qoyulur".

***Laləzar Həsənova***

*İlia Dövlət Universitetinin Beynəlxalq münasibətlər fakültəsinin tələbəsi*

## 2021-Cİ İLDƏN BAĞÇA MÜƏLLİMLƏRİ ÜÇÜN BAKALAVR PORQRAMI YARADILACAQ



Təhsil, elm, mədəniyyət və idman naziri Mixeil Çxenkeli Parlamentin təhsil, elm, mədəniyyət, idman və gənclərin işi komitəsinin qarşısında çıxışı zamanı qeyd edib ki, 2021-ci ildə universitetlərdə bağça müəllimlərinin hazırlanması üçün bakalavr proqramı yaradılacaq və onların əməkhaqqı da müəyyən ediləcək.

"2021-ci ildən universitetlərdə dayə pedaqoqların bakalavr proqramının həyata keçirilməsinə başlanılacaq. Dayə pedaqoqun əməkhaqqı siyasətinin müəyyən edilməsi və bağçadan məktəbə keçid proqramlarının yaradılması da planlaşdırılır", - deyə M.Çxenkeli qeyd edib.

## MÜƏLLİMLƏRİN ŞAGİRDLƏRƏ VERMƏMƏLİ OLDUQLARI SUALLAR

**Peşəkar müəllim heç vaxt şagirddən artıq və yersiz olanı soruşmur. Məktəb şagirdi isə bilməlidir ki, müəllim hörmət edilməli adam olsa da onun bəzi suallarına cavab verməyə də bilər. Məsələn:**

**"Xəstəsən?"**

Əgər müəllim bu qədər qayğıkeşdirsə şagirdin sağlamlığı ilə bağlı onun özündən deyil, məktəbin həkimindən məlumat ala bilər.

**"Allaha inanırsan?"**

Əgər kimsə özü danışmaq istəmirsə, ona dini inanc barədə suallar vermək ədəbsizlikdir. Nəzərə alsaq ki, din yetkinlik yaşına çatmış şəxsin öz seçimidir, o zaman bu sualı uşağa vermək ikiqat ədəbsizlikdir.

**"Bizim baş naziri/prezidenti bəyənirsənmi?, "Hökumətimiz haqda fikrin nədir?"**

Əlbəttə, tarix dərsində şagirdlər siyasi mövzuları da müzakirə etməlidir. Bu, analitik bacarıqların inkişafına dəstək olur. Amma şagirdə şəxsi və ailəsinin siyasi baxışı barədə suallar vermək qeyri-etikdir.



**"Ayaqyolunda nə gəzirsən?"**

***Variantlar: "Tualetə niyə tənəffüsdə getməyibsən?", "Dözə bilməzsənmi?", "Niyə tez-tez ora qaçırsan?".***

Müəllim şagirdə bu sualları verirsə, xüsusən də bütün sinfin qarşısında bu sualları verirsə şagirdin tam hüququ var ki, belə suallara cavab verməsin.

Aşağı sinif şagirdləri həmişə təbii ehtiyaclara nəzarət edə bilmirlər. Ona görə də, tənəffüsdə əyləncəyə başları qarışır və dərs başlayanda tualet yadlarına düşür. Əgər uşaq çıxmaq istəyirsə, deməli, buna həqiqətən də ehtiyacı var.

## MÜƏLLİMLƏR EVİNİN RƏHBƏRİ: YAŞLI MÜƏLLİMLƏRDƏN MENTOR KİMİ İSTİFADƏ ETMƏK İSTƏYİRİK



**Pul mükafatı ilə müəllimlərin məktəbdən gedişi, təcrübəçi müəllimlərin olmayacağı peşə inkişafının yeni sxemi... Bu addımlarla yaşlı müəllimlərin məktəbdən çıxarılmasını və onların gənc, yeni kadrlarla əvəz edilməsini istəyirdilər.**

**Bir müddət əvvəl Müəllimlər Evinin direktoru Berika Şukakidze təcrübəli müəllimləri yeni addım atan kadrlara mentor təyin etmək istədiyini bildirmişdi.**

**Müəllimlər Evinin direktoru bütün bunları necə təsəvvür edir? Məhz bu sualla Berika Şukakidzeyə müraciət etdik:**

– Təhsil islahatı bir asan postulata əsaslandı – biz yaşa deyil, kvalifikasiyaya aksent etməliyik. Bu, qeyri-insani, qeyri-peşəkar yanaşmadır. Çox sayda yaşlı pedaqoq tanıyıram ki, çox fəal və motivasiyalıdır. Sualınızla bağlı isə deyim ki, bu adamlar gün ərzində beş-yeddi saat dərs keçə bilməsələr də, onları sistemdən uzaqlaşdırmamalıyıq, onlardan mentor kimi istifadə etməliyik.

**– Maraqlı olan da məhz budur – "mentor kimi istifadə edək" nə deməkdir?**

– Keyfiyyətin idarəsi və əməkdaşlıq qrupunda bizə sistemə daxil olmuş gənc müəllimlərə yardım edəcək adamlar lazımdır. Məsələn, Tsaişi məktəbinə ekspert göndərməkdənsə təcrübəli pedaqoqun yerində kömək etməsi daha yaxşı deyilmi?

**– Müəllimlər buna görə əlavə əməkhaqqı alacaqlarmı?**

– Almalıdırlar! Hamımız illərlə maaşsız işləyən müəllimlərə borcluyuq. Deyə bilmərik, gəncləri gətirməliyik və onların xidməti dəyərləndirilməməlidir. Bu, pis ton olardı və belə yanaşma sistemdə heç olmamalıdır. Əksinə, istəyirik ki, hamıya göstərək ki, müəllim bu ölkədə dəyərlidir.

-------------------------------------

*Səhifədəki məlumatlar "etaloni.ge" saytından götürülüb*

***Gürcü dilindən tərcümə edən:***

***Aynurə ƏLİYEVA***

# İLK DƏRDİMİZ

“Koroğlu” dastanının “Durna teli” qolunda xəfif xəzan yarpağı boyda belə bir epizod var: “...Şəhərə girməyə az qalmışdı ki, bir qoca biçinçiyə rast gəldilər. Gördülər qoca taxıl biçir. Amma gözündən də dolu kimi yaş tökür.

Koroğlu yaxınlaşıb soruşdu:

– Ay qoca, niyə ağlayırsan?

Qoca dedi:

– Neyləyirsən, səndən ki mənim ***dərdimə dərman*** olmayacaq, çıx yolunla get”.

...orda ayla, illə, burda müxtəsər dillə... onda qoca biçinçi dərdini açıb danışır:

– Koroğlunun üç dəlisi gəlib buraya çıxıbdı. Bu gün Bağdadda onları dar ağacından asacaqlar. Üç cavan iyid oğlandı. Elədilər ki, şəkil kimi, elə doğrusu, onların halına ağlayıram.

“Durna teli”ni – bütövlükdə “Koroğlu”nu – erkən oxumuşdum; özü də səmimi sinif yoldaşlarım Eldar (torpağı nurlu-işıqlı olsun) və Elmanla (səhər-səhər Dəllərdən dərdsiz xəbərlər gözləyən qulaqları cingildəsin) birlikdə.

Onda empatiyanın – özünü başqa insanın yerində hiss edə bilmək bacarığının – nə olduğunu bilməsək də durna teli dalınca Bağdada yollanan Eyvazı, Dəmirçioğlunu və Bəlli Əhmədi qurtarmağa gedən Koroğluya və onun yeddi min yeddi yüz yetmiş yeddi igidinə qoşulub Bağdad yolunu tutmaq istəyimiz çox yaraşıqlı və şirin istək idi. Hətta Bağdadda dar ağacına çəkilmək də bizə təsirli və cazibədar görükürdü: təki Dəllərdə dərdimizi bir çəkən olsun!

Sonralar yuxarı siniflərdə də, ali məktəbdə də qoca biçinçinin “dərdimə dərman” ifadəsi hər yadıma düşəndə də – elə ifadə zənginliyi, məna çalarlığı və üsul müxtəlifliyi üçün də – duyğular imperiyasının çoxsaylı duyğularından biri olan ***dərdin*** sinonimlərini də bircə-bircə tapırdım: ağrı-azar, qəm, kədər, qüssə, iztirab, məyusluq...

Sinonimləri elə o vaxtlardan sevirəm: bu, eyni nitq hissəsinə aid olan, yazılışı və deyilişi fərqli, mənası isə eyni və ya yaxın olan sözləri...

Bir zamanlar yazıçılara, şairlərə (tanınmış qəzetçilərə də) qoma-qoma məktublar gələrdi. Atalar əbəs yerə deməyiblər ki: dərdini – dərd bilənə söylə. Dolayısı ilə, yazıçıları dərdbilən, həmdərd olaraq, dərd sərrafları kimi görənlər çox idi.

Sonralar baş barmağını çənəsinə, şəhadət barmağını da üzünə ayparaya oxşar şəkildə dayayaraq şəkil çəkdirməklə özlərini bəlkə də filosof rolunda görən, amma yüzəyüz qəmlitək də qələmə verən “haramılar” da tapıldı. Lakin bunların ilk dərdimizə arazbarı az dəxli olduğu üçün üzərindən usdufca keçirik. Baxmayaraq ki, bəzən ilk dərdin ilk məhəbbətə yarıalmatək oxşarlığı da olur; misilləmə misal üçün:

*Yol kəsib haramılar,*

*Dərd çəkir yaralılar.* –

misraları məxsusi kimin üçün deyilib? Kim bilir?

Biz tərəflərdə bir “dərdini dağıtmaq” kimi yaralı ifadə də var. Bir də görürsən, gözlərindən qürbət yağan bir adam həsrət-həsrət köksünü ötürərək düzilqarlı Əyriqar tərəflərə baxır və acı qəhərlə sənə pıçıldayır:

– Gedək dərdimizi dağıdaq...

Bir də günlərin bir günü Bakıda unudulmaz Adil Mirseyid hələ indiyədək Şəhidlər xiyabanında olmadığımı eşidən kimi demişdi:

– Gedək bir az dərd dərək.

Cəmisi dörd həftə bundan əvvəl oxudum ki, milyarder xanım Makkenzi Skott (ing. MacKenzie Scott) son dörd ay ərzində kimsəsizlərə yardım edən qurumlara və təcili yardım fonduna, nə az, nə çox, düz dörd milyard dollardan artıq ianə edib. Açığı, çox sevindim. Amma xanım Makkenzi şəkildə kədərli görünürdü; eynən “Salam, kədər” romanının müəllifi Fransuaza Saqan (fr. Françoise Sagan) misilli. Sanki dünyanın ən kədərli hekayətlərini o yazmışdı (xanım Makkenzi də yaradıcı insandır; bir neçə roman müəllifidir). Görünür, hətta hər səadətdə də bir həzin qəmginlik var imiş. Oxucuların az qala nəfəsini kəsən bəzi “rəhmsiz” romanlar kimi!

Bilmirəm unudulmaz Anatol Fransın (fr. Anatole France) “Ayaqları olmayan bir uşaq görənə qədər “ayaqqabım yoxdur” deyə kədərlənirdim” ifadəsi Süsən-Sünbülə nə vaxtdan bəllidir? Bunu deyə bilərəm ki, unudulmaz A.Frans “dərin məşəqqətli humanizmlə” yazılmış əsərlərinə görə Nobel mükafatına layiq görülmüşdü. Yeri gəlmişkən, bir vaxt mənim bir dərdim də onun “Çiçəklənən həyat” romanını tapıb oxumaq olmuşdu. Amma, əlbəttə ki, bu, bir ayrı. Üstəlik də indi belə məlum olur ki, hətta Süsən-Sünbüldə də hərdən dərd özü də bir dərman olurmuş! Başqa sözlə, arada-sırada psixoterapevtdən dolayı, özün də öz dərdinə dərman tapılmalısan!

...İndi bu yeni 2021-ci il ərəfəsində, özü də günün düz günorta yerində Mirzə Qələm israrsız-filansız Mirzə Tüpdağıdandan soruşanda ki, “bəs sənin ilk dərdin nədir?” onda Mirzə Tüpdağıdan hətta bu kreativ-modern dünyada da sayrı-saman



səslənən bir cavab verdi:

– Bilmirəm ilk dərddir, yoxsa son dərd, amma mənim dərdim qarnımı doyurmaqdır: yəni Aş və İş! Amma aş da gərək yağlısından ola! Vəssalam!

Mirzə Qələm cavabı eşidən kimi Küveyt kətanı kimi ağappaq ağardı.

Mənə qalanda, o saat unudulmaz Sabirin *“Bişdikcə qazan-qazan mütəncəm (bozartma), yad et məni, yağlı-yağlı yad et”* misraları yadıma düşdü. Amma etiraf edim ki, mən belə məğşuş havalarda daha çox unudulmaz Barış Mançonun “Arkadaşım eşşək” mahnısını dinləməyi üstün tuturam:

*Uzun kulaklarını son bir kez salla,*

*Tüm eski dostlarımdan bir haber yolla...*

P.S.

Gəl, bu dünyanı Dərdistan adlı bir diyara çevirməyək. Çünki insan bəzən Dərdistanda yaşamağa elə öyrəşir ki, hərdənbirdən heç ayrılmaq da istəmir.

Təsəvvür edirsənmi?..

***İBRAHİMXƏLİL***

# DÜNYAYA ONLAYN SƏYAHƏT

*“Ölüm var ki, həyat qədər dəyərli,*
*Həyat var ki, ölümdən də zəhərli”.*

Böyük şairimiz Hüseyn Cavidin iki misrası bugünkü yaşamımızın bədii öncəgörməsidir sanki. Dünyanı cənginə alan balaca bir virus bizlərə nəyi xatırlatdı?! Mənasız həyatımı? Əbədi dünyanımı? Yoxsa ölümün belə dəyərlisinin olduğunumu?! Əslində hamısını.

Bəyənmədiyimiz həyatımız, sıxıldığımız insanlar, bezikdiyimiz, getməyə can çəkdiyimiz iş yerlərimiz nə qədər dəyərli imiş. Ürəkdən gülmək, danışmaq, çıxıb gəzmək, rahat nəfəs almaq kimi adi görünən nə qədər qiymətli xəzinələrimiz var imiş.

Ölümün də dəyərlisi olarmış. Ucuz ölüm dedikləri budurmu yoxsa? Arxandan son namazına duracaq bir nəfərin belə olmaması. Ölümümüz də qiymətli imiş, ölərkən belə “xoşbəxt” imişik sən demə.

Bəlkə də bu virus biz insanları özümüzə qaytarmaq üçün, insan olduğumuzu xatırlatmaq üçün göndərilmiş bir işarədir?!

İnsan üçün övladdan şirin nə ola bilər ki. Bu gün həmin övladı doyunca qucaqlaya bilmiriksə, milyonlarla körpənin içindən qoxusuyla tapa biləcəyimiz ətri duya bilmiriksə, Kəbə qapılarını üzümüzə bağlayıb yalnız Əbabil quşlarıyla görüşmək istəyirsə, deməli, qəbahətimiz böyükdür Allah qarşısında, özümüzü bir daha vicdanımızın süzgəcindən keçirməliyik. Axı nə ola bilər günahımız ki, bu qədər ağır cəzaya layiq olduq? Bəlkə ölən insanlığımız? Bəlkə Haqqa yumulan gözlərimiz, doğruya dönməyən dilimiz? Ya da harama uzanan əllərimiz?!

Hər dəqiqə ömürdən gedir və biz sadəcə izləyə bilirik. Malın-mülkün əsl sahibini tanıdın artıq, ey fani insan?!

Nə qəribədir, hər kəs hər kəsi unudub, öz “çanağına” çəkilib, qapılarını bağlayıb. Neyləyək? Bəlkə səyahətə çıxaq kitablarla?! Özümüzə qayıdaq. Kim deyir ki sərhədlər bağlıdır? Hər kitab bir səyahətdir. Bəzisi bir insan ömrünə, bəzisi keçmişə, bəzisi hətta gələcəyə. Bəli, bir kitab bir insanın gələcəyini dəyişdirə bilər. Cəmiyyətimizdə kifayət qədər belə faydalı kitablar var, gözləri yollara dikilmiş, bəni-insan üzünə həsrət qalmış kitabxanalarımızda səhifələri toz tutmuş faydalı kitablar. Artıq bu kitablar elektronlaşıb ayağımıza “minnətə” gəlir, ancaq biz nədənsə oxumamaqda israrlıyıq. Onların əvəzinə faydasız oyunları və bəzi üzdəniraq verilişləri seçirik biz. Ata-babalarımızı, minlərlə bədii və tarixi qəhrəmanlarımızı qoyub “avropalaşırıq” biz. “Coni”yə bənzəməyə çalışırıq, “Anna”ya çatmaqdır hədəfimiz. Yetmir bizə Qaçaq Nəbilər, Koroğlular, ruhumuzu oxşaya bilmir Nigar xanımlar, qoçaq Həcərlər... Avropa gözümüzü “qamaşdırır”. Axı biz insanıq, parıltıya “uçan” insanlarıq. “Korona” başımıza parıltılı tac qoyacaq bu gedişlə. Allah axırmızı xeyir eyləsin.

Bəlkə səyahətə çıxaq kitablarla? Bir az uzaq keçmişə səyahət edək. Başımıza tac qoyulmadan, ölümün dəyərsizini dadmadan özümüzə qayıdaq, doğru yönə dönək. Axı bizim yönümüz bəllidir. Allahdan gəlib Allaha dönəcəyik elə deyilmi?! Bəs onda nəyin israrındayıq?!

Oxumağa vaxtımız yox idi, ibadətə vaxtımız yox idi (guya) , hətta ailədəki əzizlərimizə belə “vaxt tapa bilmirdik”. Allah bizə yetərincə vaxt göndərdi.



Bəlkə səyahətə çıxaq kitablarla? Səyahətimizə “Quran” mayak olsun. Mayakı “Quran” olanın dayağı Allah olar. Allah hər birimizə bu gözəgörünməz düşmənlə mübarizədə dayaq olsun.

**Lətafət Kərimova**

*Mollaoğlu orta məktəbinin tarix fənni üzrə baş müəllimi*

# İOSİF QRİŞAŞVİLİNİN "QƏDİM TİFLİSİN ƏDƏBİ BOHEMASI" ƏSƏRİNDƏN BİR PARÇA

## CEHİZ



*(əvvəli ötən sayda)*

***İkinci siyahıda*** əşyaların düzülüşü qaydası birinci siyahıda olduğu kimi eynidir. Fəqət fərq yalnız bir əşyadadır: bu siyahıda güzgünün yerinə "Micvritina" qeyd olunub ("ştempellə kəsilmiş gümüş micvritina").

**Qadın tualeti üçün qeyd olunub:** Balıq dişi ilə bəzədilmiş daraq – bir ədəd, haşiyə ilə kəsilmiş daraq; dörd dəmir daraq, sürmə sancaq, tük çıxardan sancaq və sair.

**Hamam üçün** elə birinci siyahıda xatırlanan eyni əşyalardır, yalnız "baş örtüyü teşti" və "bəzədilmiş ayaq daşı" əlavə olunur.

**Gürcü ədəbiyyatına** bu siyahı ilə "İrduxtiani" əlavə olunur.

**Oyuncaqlar:** "Balıq dişlərindən bəzədilmiş" xataband nərdi.

**Yataq örtüyü:** ikixovlu, çecim, taknabad (əla keyfiyyətli yapıncı - M.M.), keçə, süzən *(taxtın üstünü örtmək üçün alabəzək parça - M.M.)* dori *(söykənmək üçün yastıq - M.M.).*

**Yorğan-döşək və balış:** Kəşan bəzəmələri ilə, şalğutan astarı ilə döşək, bənövşə rəngli zərbab tükü; ət rəngli Yəzd yorğanı, daraya bafta və Fatan ğutanı ilə ipək parçadan örtük, özünün yerə sərilən mahud xalçapuşu ilə *(divar pərdəsi, xalçası - M.M.)*; Yəzd qumaşından balış və qulaq balışı.

**Bayır geyimi:** Şirmayı haşiyələrlə bürüncək, özünün boxçası ilə; bir ədəd çəkmə, bir ədəd əldə tutulan yelpik və sair *("Gürcüstanın qədim əşyaları", 1910-cu il, III cild, səh. 495).*

***Üçüncü siyahı*** içində saysız-hesabsız qaşların, incilərin xatırlandığı qədər bizim üçün diqqətə layiqdir. Məsələn:

Yelpik – dörd min xoşor *(orta - M.M.)* mirvarisi ilə.

Taflaki *(incilərlə, qaşlarla bəzədilmiş baş örtüyü - M.M.)* – on beş min xoşor incisi ilə.

Boyunbağı – yüz qırx mirvari ilə.

Ağız mirvarisi – səksən üç ədəd.

Döşə taxılan bəzək-düzək əşyası – üç min mirvari ilə.

On min murasa *(qəşəng - M.M.)* düymə don üçün – iki yüz yaqut ilə və s. *(P.İoseliani: "On üçüncü Giorginin həyatı və Gürcüstanın Rusiya ilə birləşdirilməsi", 1895-ci il, səh. 39).*

***Dördüncü siyahı*** özünün zənginliyi ilə ilk üç siyahıdan geri qalmır. Burada da 1260 incinin taxıldığı bir don xatırlanır və sair. Bu siyahıdan biz burada gürcü kitablarını qeyd edəcəyik: Kim bilir, bəlkə o dövrkü gəlinin idrakı və mənəvi inkişafını xarakterizə etmək üçün yararlı olsun. Hər yerdə olduğu kimi, bu siyahıda da birinci yeri dini kitablar tutur, "onlarsız" qeyd edilib:

"Gürcüstan həyatı","Sözlər çələngi", "Kəlilə və Dimnə", "Zeilaniani", "Qızılgül və bülbül", "Şam və pərvanə", "Yazla payızın mübahisəsi", "Əlifbanın tərifi", "Macama" ("Məcmuə"), "Qrammatika", "Ritorika", "Dialektika", "Kateqoriya", "Uydurmanın hikməti", "Visramiani", "Çardavrişiani", "Mirianiani", "Dəfnə şəhəri", "Ğaramaniani" *(Н.Эристов-Шервашидзе, "Книга о приданном царевны Нины Георгиевны", 1916-cı il, Moskva, səh. 13-14).*

Bu kitablar hamısı əl ilə yazılmışdı, dini xarakterli kitablardan başqa.

Elə bu siyahıya daxil edilib: "Hindistan və Çindən gətirilən mürəkkəbqabı", bu da o zaman, güman ki, nadir əşya idi.

***Beşinci siyahı*** onunla diqqətə layiqdir ki, burda "Vaxtanqiani" kitabı və başqa siyahılarda bizə rast gəlməyən bu aşağıda sadalanan əşyalar qeyd edilib:

Qara mərcan təsbeh.

Dizə örtmək üçün dəsmal, bir dəstə küləş qaşığı.

Üç dəniz nimçəsi.

Həştərxan sandığı.

Hamam köynəyi, özünün baş qurudanı ilə.

İki güzgü – biri otağın, o birisi qapaqlı.

İki yorğan – biri Təbrizin, o biri rusun.

Bığı burmaq üçün mirvari ilə tikilmiş parça.

Diş qazı.

Yəhər – bəzəksiz qaşı ilə.

Büllur araq piyaləsi.

Bürünc çaydan.

Qadın qəhvədanı.

Dolça – özünün zənciri ilə, kəndiri ilə.

Qoyun cəmdəyi yerləşən bir böyük qazan *("Gürcüstanın qədim əşyaları", I cild, 1899-cu il, səh. 403),*

***Altıncı siyahı*** olaraq Sameqrelo muzeyində saxlanılan V Levanın arvadının dövrün ruhu daxil olduğu cehiz siyahısı bizim üçün yararlı olar. Məsələn, bu siyahıda "rus dəmir tualet qutusu", qızıl saplı, haşiyəli rus baş örtüyü və sair xatırlanır.

***Yeddinci siyahıda*** isə daha çox Tiflis məqamı gözə çarpır. Bu siyahıya da dövrün üsulu qarışıb, P.İoseliani-nin "köhnə vaxtlar bolluca saxlayırdılar" deyə nəql etdiyi saysız-hesabsız qızıl-gümüş və mirvari daha bizə rast gəlmir.

Qarşıdakı siyahıda bizim monoqrafiya üçün çoxlu xarakterik cizgilər var:

"Terminasovun qızı Yekaterineni İsaia Elisbarinin oğlu Babilaşviliyə ərə verdik (1854-cü il).

Səksən tümən ağ pul,

Məxməri katiba *(üst qadın geyimi - M.M.),*

Atlasdan güllü don,

Qızıl saplardan tikilmiş qurşaq,

Qızıl saplardan tikilmiş qulispiri *(gürcü milli kostyumu - M.M.),*

Qızıl saplardan tikilmiş atlas cikola *(gürcü milli geyimi - M.M.),*

Mirvari boyunbağı,

Boxça (yoxsa baxça?), qızıl sancaqlı-mirvarilərlə,

Qızıl sırğa, mirvarili,

Üç qızıl üzük: zümrüd, ləl və mirvari qaşlı,

Saçaqlı ipək şal,

Baş örtüyü,

İpək parça boxçası,

Atlas baftadan arxalıq,

Blondin çikilası ağaclı (üstündən ağaclarmı çıxıb?),

Yarım düjün Bağdad dəsmalı,

Bir düjün baş örtüyü,

Bir düjün kopi *(gürcü baş örtüyünün tərkib hissəsi - M.M.),*

Üç yupka,

Bir Mərdin köynəyi özünün sığalı ilə (E.Kirionun lüğətinin şərhi ilə,"sığal" – köynəyin tayıdır" *("Dzveli Sakartvelo" ("Qədim Gürcüstan"), III cild, III şöbə, səh. 31),*

Bir ipək parça boxçası,

Hamam köynəyi dəsmalı ilə,

Süzən,

Çulku,

Başmaq,

Önə qoyulan güzgü,

Bir ipək qutusu,

Podnos sandığı.

Bir cüt balış qaz tükündən, elə özünün üzü ilə və özünün ağaban haşiyəsi ilə *(keyfiyyətli ağ parça - M.M.)* və sair" (Bu siyahını bizə A.Perşangişvili söyləmişdir ki, bunun üçün də ona minnətdarlığımı bildirirəm).

Lakin, ey oxucu, indi tamam başqa üsul və başqa qayda ilə olan cehizin siyahısını dinləməyə hazırlaşın... Bu ikinciyə əlavə səkkizinci siyahı tamamilə xüsusi diqqət tələb edir. Bu "siyahı" son vaxtların qaraçoxelilərinin irsinin toy fərmanıdır ki, bu da yazılandan sonra artıq bir ailədən başqa ailəyə elə cehizin özünün aparılmasına aid edilir.

Oxucu, ola bilsin ki, belə cehiz siyahılarını heç də görməyəsən, heç də oxumayasan, amma əgər tiflislisənsə və heç də çox cavan deyilsənsə, güman ki, cehiz verməyin bu cür mərasimini görmüş olarsan:

İrəlidə bu hadisə üçün xüsusi hava, "toy havası" çalan zurna gedir. Sonra sinəsinə güzgü basan balaca oğlan gedir, bu güzgülü oğlanın arxasınca başlarında qıraqları haşiyələrlə bəzədilmiş balış üzləri çəkilmiş, mavi rəngli baftalar ilə bağlanmış cüt-cüt balış iki-iki gənc gedir. Sonra mütəkkələr (bu da cüt-cüt) qələmkarın incə naxışlarla, haşiyələrlə işlədiyi saçaqlı, ipək material ilə və hər mütəkkənin yanında qəşəng qatlanmış butalı qanaöz parçadan yorğan, sonra mürəbbə teşti (ləyəni), özünün xırda-xuruş əşyaları ilə mücrü, sonra şkaf, kamod, məfrəş və sonda bir cüt "podnos kraoti" (və ya ikiyataqlı kraot); çox hallarda bu kraotların üzərində qonşuların gözlərini heyrətləndirmək üçün şir şəkilli rus xalı və sair olur.

Bu, nümayiş üçün çıxarılan cehizdir. İlk dəfə olaraq "bəy"in ailəsinə bu əşyalar daxil olur. Qalan xırda şeylər isə siyahıya uyğun olaraq boğçaya və sandığa yığılır...

***Bu siyahı da budur:***

"Atanın adı ilə, müqəddəs ruhun adı ilə, amin!

Mənim əziz qızıma nəyim varsa verirəm:

Bir bəzənmiş gəlincik,

Bir abanoz *(möhkəm və qara ağac - M.M.)* şifanerkası,

Dörd balış, özünün üzləri ilə,

Dörd qapı-pəncərə pərdəsi,

Bir çörək sandığı,

Təndirdən çörəyi çıxartmaq üçün iki şiş (qarmaqlı və kürəcik),

Bir təknə, özünün balaca dəmir kürəyi ilə (köhnə vaxtlar hər bir ailənin öz təndiri var idi, çörəyi evdə bişirirdilər),

Bir düjün şimşad qaşıq, yaxşı fabrik istehsalı,

Həvəngdəstə, özünün ağacı ilə. "Qədimlərdə yazırdılar "bir əvən və əvəndəstə" *( P.İoseliani: "Çar on üçüncü Giorginin həyatı", 1895-ci il, səh. 41),*

Mdivanovun gürcü təqvimi (Serq-Step. Mdivanov gürcü təqvimini demək olar ki, 50 il ərzində nəşr edirdi. Onun təqvimi sadə camaat arasında geniş yayılmışdı. Mdivanov şeirlər də yazırdı və elə o 1894-cü ildə "Min bir gecə nağılları" çevirmiş və iki kiçik kitabça şəklində nəşr etmişdir),

Hamamda ayaq kərpici (Bu günə qədər qalmışdır. Köhnə siyahılarda yazırdılar: "Bir ayaq daşı dəmirə tutulmuş"),

Bir hamam azğudu *(Qolsuz, beldən yuxarı qadın geyimi - M.M.),*

On altı fəsil "Ğaramniani",

Bir cüt xəpəng,

"Zinger" tikiş maşını,

12 tağalaq tikiş sapı,

İki mumlanmış şibak *(beşiyə bağlanan, sidiyin axması üçün ağacdan düzəldilmiş mil - M.M.)* – biri oğlan üçün, biri qız üçün,

Bir gümüş padnos – 8 girvənkə və 83 misxal çəkidə,

Hamam boxçası, özünün kisəsi ilə,

Mürəbbə teşti,

Mis ləyən və dolça,

Yarım düjün sarı Kutais süpürgəsi,

Aşsüzən,

Böyük kəhrəba təsbeh,

Qayınana üçün üstündə şahın rəsmi çəkilmiş burunotu qutusu.

Qayınana üçün rufak *(rüfəqa ərəb sözüdür - rəfiqlər, yoldaşlar deməkdir - M.M.),* Kirman şalı və ya donluq,

Qayın arvadı üçün bahalı yun şal,

Yuxa ipək baş örtüyü,

Paltar yumaq üçün teşt, üç qazan, sacayağı və fırın tavası,

Altı ədəd Bağdad şalı,

Dəmgilli baş örtüyü,

Ənlik və kirşanı çəkmək üçün sədəf piyaləsi,

Yunla doldurulmuş bir cüt mütəkkə, iki qat yorğan-döşək,

İki xalça, özünün çırpmaq üçün dəyənəyi ilə,

Paltar kəndiri, özünün şpilkaları ilə,

"Karabadini" *(qədim Gürcüstanda müalicə kitablarının ümumi adı - M.M.),*

Beş kündə halında bərkidilmiş keçi piyi,

Bir çərək həna və nar qabığına qarışmış basma – baş ağrısı üçün yaxşıdır,

Bir asım kol armudu qaxı – "bəy"in qarın ağrısına getdiyi vaxtlar müalicəvi dərmandır və sair" *(Bu siyahını Yelisabet Kakaçevin ailəsində gördük, bir az dəyişikliklə D.A.Ğazarov tərəfindən "Masabəyinin duası"nda dərc olunub, 1917-ci il, səh. 10).*

Şərh çoxdur!

Bu son siyahıda vaxtın müddəti əks olunub!

Bura, gördüyümüz kimi, xırda və ucuz ailə əşyalarından başqa "Karabadini"dən götürülmüş reseptlər də daxil edilib. Nə gözəl paraleldir! Qədimdə əgər qıza cehizdə "Pələng dərisi geymiş pəhləvan"ı verirdilərsə, son dövrün cehiz siyahılarında ünlü Mdivanovun ünlü təqvimi xatırlanır! Bu siyahı qədim Tiflisin orjinal leksikasının tədricən necə hörmətdən düşdüyünün və necə bir varvarizmlə bizim göyçək gürcü dilini zibillədiklərinin gözəl nümunəsidir.

*(davamı gələn sayda)*

Gürcü dilindən tərcümə edən: ***Mirzə MƏMMƏDOĞLU***

AFİQ MUXTAROĞLUNUN AYAQÜSTÜ DÜŞÜNCƏLƏRİ

# AVROPANIN KÜÇƏ BÜLBÜLLƏRİ

Mən onlara əvvəllər də rast gəlmişdim. Hələ Avropaya gəlməmişdən qabaq Tiflisin tünlük yerlərində, adamların daha gur olduğu yeraltı keçidlərdə, hətta bir dəfə metro qatarında onları görmüşdüm. Və bu adamları "Tiflisin küçə bülbülləri" adlandırıb, onlar barədə "Varlıq" qəzetində eyniadlı bir yazı da çap etdirmişdim. Bu, mənim onlarla ikinci görüşüm sayılmalıdır. Bunu müəllifin Avropada küçə bülbülləri ilə görüşü də adlandıra bilərsiniz. Belə adlandırmaqla xəncərinizin qaşı da düşməz. Son cümləni zarafatla yazdığımı da inanıram ki, göydə tutmusunuz.

Küçə bülbüllərindən biri barədə yazım da var. Sayca ikinci yazı. Özünün işığa çıxmasını gözləyir. Bu qaraladığımsa üçüncüdür. Adam öz hesabını bilsə yaxşıdır. Nədir, yaxandan medalmı asacaqlar? Bunu da deməsəm olmazdımı? Nə bilim, bir söz idi ağzımdan qaçdı və mənzərənin bütövlüyü xatirinə saxlamalı oldum.

Mənim onları – küçə bülbüllərini Niderlandda da, Belçikada da dinləmək imkanım oldu. Ən çox da Almaniyada – Kölndə, Essendə. Söhbətin küçə musiqiçilərindən getdiyini yüzdə yüz bilməyinizi əminliklə söyləyirəm. Sizin bəsirət gözünüzün olmasına da əminəm.

Bülbül adlandırdığım bu musiqiçilərin niyə küçəni özlərinə tamaşa meydanı seçmələri sualı onları Tiflisdə ilk gördüyüm gündən qafamdadır. Təkcə bu sual yox, bu musiqiçilərlə bağlı beynimdə xeyli sual işarəsinin yaranmasını da etiraf edim və beynimdə düzülmüş o sualları sırasıyla sadalayım.

Bəlkə sənət yolunda uğurun başlanğıcı elə bu küçələrdən keçir? Və ya bəlkə əksinə küçələr onların uğursuzluqlarını ört-basdır edən bir yerdir? Və ya nədən bu bülbüllər özlərinə qızıl qəfəs – konsert salonu tapmağa cəhd etmirlər? Və ya kapitalizm cəmiyyətində bülbüllərə qəfəsmi çatmır? Və ya bəlkə mənim qəhrəmanlarım qəfəsə girmək istəmirlər? Və ya küçədə azadlığın havasımı boldur? Və ya qəfəsə girmək üçün başqa meyarlarmı gərəkdir? Və ya qəhrəmanlarım öz potensiallarının, qablarında olanın ancaq küçəyə layiq olduğunumu düşünərək, küçələrə düşüblər? Və ya küçə onlara dahamı çox gəlir verir?

Bu ritorik sualları uzatdıqca uzatmaq olar. Mən bunlarla kifayətlənirəm. Örnəklər verməklə küçə musiqiçilərinin obrazını ətə-qana gətirmək niyyətindəyəm. Alınsa deyərsiniz, alınmasa da canınız sağ olsun, bir də cəhd edərəm.

Amersfortun küçə və meydanlarında dəfələrlə rastlaşdığım qaraçı akkordeonçunun məqsədi pul qazanmaqdır. Onunla bu barədə söhbətim olmuşdu. Orta yaşlı bu adam bu məqsədini gizlətmək fikrində də deyil. Gündə bir neçə dəfə yerini dəyişərək, az-çox qazanır da. Bolqarıstan qaraçısı elə bu məqsədlə "qastrola" çıxmayıbmı? Kişi çörəyinin ucunu tapıb, ağ-qara nə fərqi.

Həmişə meydanın baş tərəfini özünə səhnə seçən qoca holland şarmankaçı da şöhrətfilan düşünmür, məncə. Həm gününü keçirir, həm də sənətini yaşadır. Köhnə vərdişi hər gün onu küçəyə səsləyir. Üstəlik də, artıq tikə göz ha çıxarmır, beş-üç şahı gündəlik ruzisini çıxarır. Qoca şarmankaçı geyiminə-kecimінə fikir verən adamdır. Qara frakı, ağ köynəyi, bu ağlığa yaraşan kömür qarası kəpənək papyonu, bütün bunları tamamlayan şəvə kimi qara panaması ötüb-keçənlərin ona diqqət yetirməsində ifa etdiyi musiqi qədər önəmlidir. Bunu onun pul qutusuna atılan sikkələrin sayından da görmək olar.

Bu gənc gitaraçının dərdi, deyəsən, pul dərdi deyil. Könlündəkiləri gitaranın simlərində musiqiyə çevirib, sanki içinin məhrəm duyğularını insanlara ötürmək istəyir. Onun ifa etdiyi musiqi parçaları könül söhbətləridir, yarımçıq qalmış arzuların, çiliklənmiş bir eşqin sızıltılarıdır. Göylərin maviliyinə dikilmiş dalğın baxışları da belə düşünməyimə nədən olur. Qutusuna atılan metal sikkələrin cingiltisi belə onu bu dalğınlığından qopara bilmir. Heç pul verənlərə təşəkkür də etmir. Ya buna gərək olmadığını düşünür, ya da öz aləmində olduğundan doğrudan doğruya ifasının maddi qarşılığı sikkələrin cingiltisi belə onun üçün eşidilməzdir.

Bu minibusdan yekə, avtobusdan balaca furqona bənzəyən, cürbəcür rəsmlərlə bəzədilmiş şarmankanın ətrafında isə bir neçə adam dolaşır. Bu nəhənglikdə dəm-dəsgahın dörd tərəfində bu adamların dolaşması da təbiidir. Biri arxada şarmankanın dəstəyini fırladır, biri tamaşaçıları əyləndirir, biri də onlardan pul toplayır. Hamısı da klassik, uzaq keçmişin əlamətlərini daşıyan naxışlı geyimdə. Bir anlıq özünü bir neçə yüz il əvvələ getmiş kimi hiss edirsən.

Essenin küçə skripkaçısı barədə ayrıca yazı yazdığımın siqnalını yuxarıda vermişəm. Burada onun barəsində danışmağımdan susmağım yeydir.

Essenli yaşlı şarmankaçı barədə də ayrıca bir yazı düşünürəm. Nədən ki, əsil yazıya düşməsi gərəkən biri olduğunu yəqinləşdirmişəm. Sizi intizarda saxlamalı olsam da, qoca şarmankaçı barədə bundan artıq heç nə deyə bilməyəcəm. Üz vurmayın siz Allah, onsuz da deməyəcəm. Hələlik yəni.

Venloda müxtəlif ölçülü plastik boya vedrələrini ağzıüstə çevirib şəhərin ortasında zərb aləti kimi döyəcləyən holland uşağı musiqiçidən çox məzhəkəçiyə bənzəyirdi. Amma musiqi adına nəyəsə cəhd etdiyi də unudulmamalıdır. Uşaqdır, başqa imkanı yoxdur və azarını bu cür öldürür desək, dünyamı dağılacaq? Onun hərəkətini təqdir edənlər, rəğbət bəsləyib həvəsləndirənlər ayaq saxlayaraq, onun ifasını alqışlayırdılar. Əllərini ciblərinə salmaqları da bir ayrı. Bəlkə bu oğlanın musiqi ilə bağlı planları daha genişdir. Məsələn, pul toplayıb bahalı bir zərb aləti almaq və ya nüfuzlu bir musiqi akademiyasında təhsil almaq. Ola bilməzmi?

Kölnlü klarnetçi qızcığazla bağlı bir-iki cümlə yazdımmı bu yazı da tamam. Bir-iki cümləylə alınsa yəni.

Orasını da deyim, Köln şəhərinin bu küçə bülbülü yazımın yaşca ən kiçiyidir.

Kölnün təxminən 650 ilə tikilmiş qoşaqülləli kafedral kilsəsindən sağa dönüncə alış-veriş yerlərinin sıralandığı, insanların qayır-qayır qaynaşdığı küçənin daş soyuqluğu ilə üzləşirsən. Elə kilsə meydanında öz ölkənin rəngli təbaşirlərlə bayrağını çəkə bilərsən və ya səndən əvvəl kiminsə çəkdiyi bayrağı yenidən boyayıb, təzələyə bilərsən. Əlin cibində olsun. Bəs kapitalizmi nə bilmişdiniz? Orasını da deyim ki, kilsə meydanında dünyanın əksər ölkələrinin dövlət bayraqları arasında Azər-



baycan, Gürcüstan bayraqlarını görmək çox qürurvericidir.

Meydandan keçib küçəyə daxil olursan. Küçə musiqiçiləri, səfillər və hər rəngdə insan, turistlərə şəhər gəzintisi təklif edən, uzaq Asiyanın rikşalarını xatırladan üstü çadırlı taksi-velosipedlər hər addımda qarşına çıxır. Və mən klarnetində həzin bir musiqi parçası ifa edən o qızcığazı görürəm. Qızcığazı görənlər, onun ifasını dinləyənlər səxavət kisələrinin ağzını açıb, onun qutusuna pul qoyurlar.

Bu klarnetçalan qızcığaz bir az utancaqdır. Həm isti, həm də ifasının insanlara necə təsir edəcəyinin həyacanı onun üz-gözünün pörtməsinə, yanaqlarının qızarmasına nədən olur.

Sənət sevgisimi onu küçələrə salıb, yoxsa ehtiyacmı? Bəlkə sənət zirvəsinə gedən yolun başlanğıcı küçədən keçir? Bəlkə bunun üçün küçənin bərkinə-boşuna düşmək gərəkdir? Bəlkə qızıl qəfəsin astanası, qapısıdır küçə? Böyük konsert salonlarının alqış gurultusuna alışmaq üçün küçə səhnəsi bir tramplinmi?

Elə bu sual dolu abzasla da yazımı tamamlayıram. Bilmirəm dadı-duzu yerindəmi oldu? Bu dəfə də belə olsun.

**Afiq MUXTAROĞLU**
*Almaniya*

# ARTAN ENERJİ TƏLƏBATI VƏ YENİ MƏNBƏLƏR

Hər il dünyada əvvəlki illərlə müqayisədə daha çox enerjiyə ehtiyac yaranır. Hər kəsə məlum olduğu kimi bunun əsas səbəblərindən biri ilbəil elektriklə çalışan qurğu və cihazların, eləcə də onların iştifadəçilərinin sayında olan kəskin çoxalmadır. Ekspertlərə görə, davamlı tendensiya xarakteri daşıyan bu prosesin yaxın gələcəkdə enerjiyə indiyə kimi görülməmiş dərəcədə böyük tələbat formalaşdıracağı güman edilir. 2018-ci ilin statistikalarına əsasən, bütün dünya əhalisinin bir illik enerji istifadəsi 155 min teravat enerjiyə bərabərdir. Bu qədər enerjiyə olan tələbatı ödəmək üçün kömür, qaz, su və neft kimi müxtəlif növ təbii mənbələrdən istifadə olunur. Ötən əsrdə bu mənbələr sırasına stansiyalarda istehsal onunan Nüvə enerjisi də əlavə olundu. Nüvə enerjisi həm əldə edilməsinə görə, həm də çox təhlükəli bir yol olduğuna baxmayaraq hazırda da enerji istehsalı üçün dünyada istifadə olunan mənbədir. Bunun səbəbi isə digər enerji mənbələri ilə müqayisədə onun qısa vaxt ərzində daha çox enerji istehsal edə bilmək potensialıdır. Dünyada bir illik ümumi enerji istehsalının sadəcə 11 %-i təbiətə daha az ziyan vuran su elektrik stansiyaları və ya başqa yenilənə bilən enerji mənbələrindən istifadə edərək əldə olunur.

Hesablamalara görə, 2050-ci il üçün Yerdəki enerjiyə olan tələbatın 315 kvadriliyon Btu-ya (British thermal unit) çatacağı proqnozlaşdırılır. Bu isə yaxın gələcəkdə mövcud enerji mənbələriylə insanların tələbatını tam ödəyə bilməyəcəyi mənasına gəlir. Bu səbəbdən yeni növ enerji axtarmaq ideyası gündəmə gəldi və XX əsrin sonlarına yaxın yeni enerji formalarının axtarılmasına başlanıldı. Ekspertlərə görə, yeni növ enerji mənbəyinin digərlərindən fərqli olaraq təbiətə mənfi təsirləri minimuma endirilməli, onun istehsal olunacaq stansiyalarında ən azı 100 min meqavat enerji istehsal edə bilmək potensialı olması şərt olaraq qəbul edilməlidir. Çünki dünyamızda bir yandan artan enerji tələbatını təmin etmək problemi ilə yanaşı indiyə kimi istifadə olunan nüvə, kömür, neft və qaz kimi enerji mənbələrinin işlənilməsi zamanı yaranan kimyəvi və radioaktiv tullantılar hələ də ətraf mühitə ziyan vurmaqda davam edir. Buna görə də, yeni kəşf olunacaq enerji mənbəyinin ümumi enerji tələbatını ödəməsi ilə yanaşı, müəyyən dərəcədə ətraf mühitin təhlükəsizliyini də təmin etməlidir.

XX əsrin sonlarına yaxın bu mövzuda böyük addımlar atıldı. Xüsusilə də termonüvə reaksiyaları zamanı böyük miqdarda enerjinin ortaya çıxmasının kəşfindən sonra Avropada "Avropa nüvə araşdırmaları təşkilatı" (CERN), əsrin sonlarına yaxın isə "Beynəlxalq Termonüvə Təcrübə Reaktoru" (ITER) quruldu. Burada müxtəlif ölkələrdən elm insanları cəlb olunaraq araşdırma və təcrübə proqramlarına başlanıldı. Müsbət irəliləyiş əldə etmək üçün illər lazım oldusa da, nəticələr ürəkaçan oldu – dünyada ilk dəfə süni şəkildə Günəşə bənzər enerji əldə edilməsinin mümkünlüyü isbatlandı.

CERN-də əldə edilən nəticələrdən sonra Fransada 35 ölkənin tərəfdaşlığı ilə "Tokamak" deyilən xüsusi stansiyanın inşasına başlanıldı. Ümumi inşaat xərci 22 milyard avro olan bu stansiyanın reaktoru 500 min meqavat enerji istiliyə tab gətirəcək gücdə olacağı və bir neçə saat ərzində bir böyük şəhərin illik istifadə edəcəyi enerjini istehsal edəcəyi düşünülür. Bu stansiyanın 2035-ci ildə istifadəyə veriləcəyi gözlənilir. Atom stansiyalarından fərqli olaraq burada radioaktiv maddələrdən istifadə olunmadığı üçün tamamən təhlükəsiz enerji əldə olunacağına böyük əminlik vardır. Artıq dünyanın bir neçə ölkəsində fərqli "Tokamaklar" inşa edilmişdir və onlardan yalnız Çindəki "Tokamak" 2018-ci ildə qısa bir müddətdə uğurlu şəkildə işə salındı. Bu, eyni zamanda mərkəzindəki temperatur 100 milyon C dərəcəyə qalxan ilk cihaz olmuşdur.

Ümid edək ki, bu araşdırmalar və tədqiqatlar yaxın gələcəkdə bizi enerji böhranı ilə qarşılaşmaqdan uzaq tutacaqdır.

***Səlahəddin PİRİYEV***
*Tbilisi Dövlət Universitetinin İqtisadiyyat və Biznes fakültəsinin tələbəsi*

İCTİMAİ QƏZET yeni_yol@mail.ru "იენი იოლი" საზოგადოებრივი გაზეთი HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

31 DEKABR 2020-Cİ İL №019 (123)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## KVEMO KARTLİDƏ 57 647 NƏFƏR SOSİAL YARDIM ALIR



Gürcüstanda ümumi əhalinin 13,7 %-i yaşayış minimumu alır, bu isə o deməkdir ki, ölkədə hər 7-ci adam kasıblıq içində yaşayır.

Ən çox ehtiyac içində yaşayanlar Raça-Leçxumi və Kvemo Svaneti bölgələrindədir. Bu bölgələrdə əhalinin demək olar ki, yarısı (43 %) yardım alır. Kasıb əhalinin ən az yaşadığı bölgə isə Samtsxe-Cavaxetidir. Bölgə əhalisinin 8,3 %-i yardım alır.

2020-ci ilin oktyabr ayına olan vəziyyətə görə, Gürcüstan miqyasında 510 343 nəfər (142 870 ailə) yardım alır. Bu isə ümumi əhalinin 13,7 %-ni təşkil edir.

Statistika İdarəsinin məlumatına əsasən, Gürcüstanda 3 716 858 nəfər yaşayır.

Milli Statistika İdarəsinin metodologiyası və Sosial Xidmət Agentliyinin məlumatına əsasən, Gürcüstanın bölgələrində həddindən artıq kasıb yaşayan əhalinin faiz göstəriciləri hesablanıb və ən kasıb bölgə Raça-Leçxumi və Kvemo Svanetidir. Bu bölgədə 29 080 nəfər yaşayır, onlardan 13 673 nəfəri yardım alır. Bu isə əhalinin 43 %-i deməkdir.

Statistik göstəricilərə əsasən, Raça-Leçxumi və Kvemo Svanetidən sonra Sameqrelo-Zemo Svaneti gəlir. Burada 311 113 nəfər yaşayır, onlardan 64 168 nəfəri (19,4 %) yardım alır.

Yardım alanların sayına görə daha sonra Quriya gəlir. Burada əhali sayı 108 099 nəfər təşkil edir. Onlardan 21 548 nəfəri (19,1%) sosial yardım alır.

Şida Kartlidə 255 124 nəfər yaşayır. Onlardan 47 359 nəfəri sosial yardım alır. Bu, bölgə əhalisinin 17,9 %-dir.

Şida Kartlidən sonra ən çox yardım alan Mtsxeta-Mtianetidə yaşayır. Bölgədə 93 343 nəfər yaşayır və 16,5 %-i (15 595 nəfər) yardım alır.

Kaxeti bölgəsi Mtsxeta-Mtianetidən bir az geri qalır. Kaxetidə sosial yardım alanların sayı 16,3 %-dir. Regionda 310 051 nəfər yaşayır, onlardan 52 071 nəfəri yardım alır.

Acarıstanda 351 892 nəfər yaşayır. Onlardan 15,1 %-i sosial yardım alır (50 732 nəfər).

**Kvemo Kartlidə** isə 434 241 nəfər yaşayır, onlardan 13,6 %-i (57 647 nəfər) sosial yardım alır.

Sosial yardım alanların sayına görə Kvemo Kartlidən sonra İmereti gəlir. İmeretidə 486 983 nəfər yaşayır. Onlardan 12,4 %-i (66 317 nəfər) ağır kasıblıq şəraitindədir.

Samtsxe-Cavaxeti və Tbilisidə isə sosial yardım alanların sayı əhalinin 10 %-dən azdır.

Faiz baxımından ən az sosial yardım alanlar Samtsxe-Cavaxetidədir. Bu bölgədə 152 114 nəfərdən 13 256 nəfər yardım alır. Bu isə bölgə əhalsinin 8,3 %-dir.

Paytaxt Tbilisidə isə 1 184 818 nəfər yaşayır ki, onlardan 107 977 nəfəri sosial yardım alır. Bu, Tbilisi əhalisinin 9,7 %-ni təşkil edir.

*Mənbə: bpn.ge*

## GÜRCÜSTANDA KASIBLARIN SAYI 1 MİLYONU AŞIB

Son bir ildə dövlət tərəfindən yardım alan insanların sayı təxminən 23,8 % artıb. Sosial Xidmət Agentliyinin məlumatına görə, 2020-ci ilin noyabr ayında yardım alanların sayı (son dərəcə ehtiyaclı) ötən ilin analoji dövrü ilə müqayisədə 99 304 nəfər artıb.

Statistik məlumatlara əsasən, 2019-cu ilin noyabr ayında yardım alanların sayı 416 396 nəfər, 2020-ci ilin noyabr ayında isə 515 700 nəfər təşkil edib.

Sosial Xidmət Agentliyinin bazasında qeydiyyatdan keçənlərin, yəni özünü kasıb hesab edən və yardıma ehtiyac duyanların sayı 1 milyonu aşıb. 2019-cu ilin noyabr ayında belə insanların sayı 929 440 nəfər təşkil edirdi, bu gün isə bazada 1 011 868 nəfər qeydiyyatdan keçib.



*Mənbə: bpn.ge*

## TÜRKİYƏDƏN ALDIĞIMIZ VƏ TÜRKİYƏYƏ SATDIĞIMIZ MƏHSULLAR



2020-ci ilin yanvar-noyabr aylarında Gürcüstanın xarici ticarət dövriyyəsi 10,202 milyard dollar təşkil edib. Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 14,6 % azdır. Belə ki, ölkənin ən böyük ticarət tərəfdaşları bunlardır: Türkiyə (1,429 milyard ABŞ dolları), Rusiya (1,185 milyard ABŞ dolları) və Çin (1,092 milyard ABŞ dolları).

Statistika İdarəsinin məlumatına görə, hesabat dövründə Türkiyəyə məhsul idxalı 13,4 %, ixracı isə 7,1 % azalıb.

"BusinessPressNews" Türkiyədən aldığımız və Türkiyəyə satdığımız məhsulları təqdim edir:

**Gürcüstandan Türkiyəyə ixrac edilmiş ən böyük məhsul qrupları:**

- Trikotaj parçalar – 35,334 milyon ABŞ dolları;
- Ferro ərintilər – 29,949 milyon ABŞ dolları;
- Kişi və ya oğlan üçün trikotaj toxumalı kostyumlar və dəstlər – 14,727 milyon ABŞ dolları;
- Karbondan hazırlanmış yarımfabrikatlar – 11,105 milyon ABŞ dolları;
- Balıq və dəniz məməlilərinin yağları, əlavə hissələri – 9,354 milyon ABŞ dolları.

**Türkiyədən Gürcüstana idxal edilmiş ən böyük məhsul qrupları:**

- Qara metal borular və boş profillər – 39,371 milyon ABŞ dolları;
- Müalicə vasitələri – 39,365 milyon ABŞ dolları;
- 10 nəfər və daha artıq (sürücü də daxil olmaqla) insan üçün nəzərdə tutulmuş avtomobillər – 36,270 milyon ABŞ dolları;
- Qara metal konstruksiyalar və onların hissələri – 31,954 milyon ABŞ dolları;
- Başqa geyim nümunələri də daxil olmaqla hazır məhsullar – 26,891 milyon ABŞ dolları.

## GÜRCÜSTANDAN ƏN ÇOX PUL KÖÇÜRÜLƏN ÖLKƏLƏR

2020-ci ilin noyabr ayında Gürcüstandan xaricə 21,8 milyon ABŞ dolları köçürülüb. Bu, ötən ilin müvafiq dövründəki göstəricilərlə demək olar eynidir. Milli Bankın məlumatına görə, 2019-cu ilin noyabr ayında ölkədən xaricə 21,8 milyon ABŞ dolları köçürülüb.

Qeyd etmək lazımdır ki, ötən il də ən çox pul köçürmələri Rusiyaya həyata keçirilmişdir. Onluqda Türkiyə, Ukrayna, Azərbaycan, Yunanıstan və s. yer alır.

**2020-ci ilin noyabr ayında Gürcüstandan ən çox pul köçürmələri həyata keçirilmiş 10 ölkə:**

- Rusiya - 6,824 milyon dollar;
- Türkiyə - 4,362 milyon dollar;
- Ukrayna - 1,961 milyon dollar;
- Azərbaycan - 1,396 milyon dollar;
- Yunanıstan - 1,048 milyon dollar;
- Ermənistan - 980,4 min dollar;
- İtaliya - 478,5 min dollar;
- Qazaxıstan - 475,2 min dollar;
- Özbəkistan - 451,7 min dollar;
- Almaniya - 433,2 min dollar.

Qeyd edək ki, 2020-ci ilin noyabr ayında xaricdən Gürcüstana köçürülmüş pulun həcmi 169,9 milyon dollar təşkil edib. Bu isə 2019-cu ilin noyabr ayının göstəricilərindən 12,5 % çoxdur. Ötən il noyabrda ölkəyə 151,042 milyon ABŞ dolları köçürülüb.

*Mənbə: bpn.ge*

Təsisçi: "Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"

Redaktor: Azər MUSAOĞLU
Yayım direktoru: Hacı BƏKİROĞLU
Qrafik dizayn: Elsevər ƏHMƏDOV

ÜNVAN: Qardabani şəh., Kolxoz küç. 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet həlalik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.